# SƏNƏTKAR ÖMRÜ

## Metalişləmə ustası Şaiq Məmmədovun yaradıcılığı haqqında



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

### ÖN SÖZ ƏVƏZİ

Ötən əsrin yetmişinci illərində, daha dəqiq desək, 1978-ci ildə Bakıdakı Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Rəsm, rəsmxətt və əmək təlimi" fakültəsini bitirib müəllim kimi Nizami-Cavad xan yurdundakı M.Gəncəvi adına Gəncə pedaqoji məktəbdə fəaliyyətə başlayan Şaiq Məmmədov nədənsə ilk vaxtlar özünü hələ də yol ayrıcında hiss edirdi. Paytaxtdakı ali təhsil ocağında respublikanın adlı-sanlı sənətkarları tərəfindən ona aşılanan bədii-texniki vərdişlər əslində onun təsviri sənətin bütün sahələrində fəaliyyət göstərməsinə imkan verirdi. Elə yenicə işə başladığı pedaqoji məktəbdə də sənətinin ustası olan, yaradıcılıqları Gəncənin hüdudlarını çoxdan aşan və ona nümunə ola biləcək rəssamlar da az deyildi. Bir sözlə, rəssamlığın hansısa sahəsinə ciddi maraq göstərmək onun üçün çətinlik törətməməliydi. Bu cür qənaəti yetərli hesab etməmək də olardı. Çünki, sənət aləmində ən başlıcası yaradıcı şəxsin özünü ifadə edə bilməsidir. Ən başlıcası, görüntüyə gətirilənlərin onlarla təmasda olanları cəlb edə bilməsi, duyğulandıra və düşündürə bilməsidir. Bu cür bədii ifadəni kağız və kətan səthində də, daş və metal tutumunda da gerçəkləşdirmək olar. Təbii ki, müstəqil yaradıcılığa yenicə qədəm qoyan 22 yaşlı gənc üçün qəti addım atmaq duyulası dərəcədə çətin idi. Bir qədər irəli gedib deyək ki, bu gün "Azərbaycan Respublikasının əməkdar rəssamı" kimi yüksək fəxri adı daşıyan Şaiq Məmmədovun tanınma nişanının 37 il əvvəl başladığı qrafika sahəsinin yox, bilavasitə həmin sənət növündən də daha qədim tarixə malik olan metalişləmə sənətinin olması da təsdiqləyir ki, zamanında onun seçimi sona qədər ürəyindən gələn olmayıb...

Əslində bu gün respublikamızda metalişləmə sahəsinin ən mahir ustalarından sayılan Şaiq Məmmədovun həyat bioqrafiyasında onu el sənəti ilə bağlaya biləcək məqamlar az olmamışdı. Hələ uşaqlıq vaxtı Gədəbəyin Samanlıq kənd məktəbində oxuyan balaca Şaiq bu təhsil ocağının estetik görkəminə düyulası özünəməxsusluq bəxş etməklə yanaşı, heç bir kənd toyunun keçinmədiyi bəzəkli "şax"ları hamıdan fərqli və gözəl hazırlamaqda ad çıxarmışdı. Elə düşünürük ki, Samanlıqdan başlanan sənət uğurlarına görə sonralar dəfələrlə layiq görüldüyü mükafatlar çox olsa da, onun həmin toy "şax"larını bəzəməsinə görə aldığı bəzəkli corab və yaylıq bəlkə də onun bütün ömrü boyu unutmayacağı mükafatlardır. Bu gün ömrünün altıncı onluğunu "xırdalayan" Şaiq Məmmədov indi də həmin şirin uşaqlıq illərini xatırlamaqla, bu gün sənətdə tutduğu yolun məhz təbii və milli dekorativ sənət nümunəsi sayıla biləcək "şax"ların bədii-estetik tutumundan qaynaqlandığını etiraf edir...

### QRAFİK CİZGİLƏRİN İŞIĞINDA

Əgər Şaiq Məmmədovun bir qərinəlik yaradıcılıq yolunu xronoloji ardıcıllıqla izləməli olsaq, onda ilk olaraq onun qrafik irsindən söz açmalıyıq. Təsviri sənətin bütün növlərinin özünəməxsus bədii-texniki çətinliklərinin mövcudluğu qarşılığında gənc rəssamın yerli və respublika əhəmiyyətli sərgilərdə bilavasitə qrafik işlərlə iştirak etməsi onun həm də özünün yaradıcı-bədii potensialına inamının ifadəsi idi. Müxtəlif janrlarda işlənmiş həmin əsərlərin duyulası zaman distansiyasından sonra belə hər cür "sınağa" dözə bilməsi isə heç şübhəsiz onlarda gənc müəllifin duyulası rəsmetmə mədəniyyəti nümayiş etdirməsinin nəticəsidir. Ağ-qara cizgilərin ahənginə, axıcı ritminə, eləcə də duyulası təzadına tapınan Şaiq Məmmədovun müraciət etdiyi hər hansı mövzunun şərhi üçün tətbiq etdiyi bədii-texniki ifadə vasitəsi inandırıcı, tamaşaçını duyğulandırmaq, yeri gələndə düşündürmək gücündədir. Bu mənada onun "Natürmort" (1985), "Babaların söhbəti" (1985), "Sazla natürmort" (1985), "Məhərrəm babamın portreti" (1986), "Aşıq Səmədin portreti" (1986), "Səməd və Savad" (1986), "Yaylaqda" (1986), "Nizami dünyası" (1987), "Çoban" (1987), "Xəyal" (1987), "Kərəm yanğısı" (1988), "Əsli və Kərəm" (1988), "Mirzə Abbas Abbaszadənin portreti" (1989), "Ələşrəf bəyin portreti" (1997), "Gənc qız" (2003), "Ləpələr" (2004), "Dünyam mənim" (2004) və s. əsərlərinin adını qeyd etmək olar...

### METALİŞLƏMƏNİN ÇAĞDAŞ MÖCÜZƏLƏRİ

Azərbaycanda metalişləmə sənətinin çox qədim tarixi vardır. Onun uzunömürlülüyü, ilk növbədə, gündəlik həyatımızla bağlı olması ilə əlaqədardır. Zaman-zaman el sənətkarları məişətimizi zənginləşdirən müxtlif əşyalar hazırlamışlar. Tarixin inkişaf mərhələlərində onların bir qismi praktiki əhəmiyyətini itirərək muzey və şəxsi kolleksiyaların bəzəyinə çevrilib. Qalanları da ömrünə yazılmış qayğısızlığın axarında öz əvvəlki görkəmini, təmtərağını Şaiq kimi sənətkarların sayəsində bərpa etməkdədir.

Bu gün onun ölkəmizdə metalişləmə sənəti ilə davamlı məşğul olan bir-neçə məşhur sənətkardan biri olması danılmazdır. Həm respublikamızda, həm də onun hüdudlarından xeyli uzaqlarda baş tutan müxtəlif miqyaslı bədii sərgilərin ekspozisiyasını onun əsərləri olmadan təsəvvür etmək sadəcə mümkünsüzdür. Onun metalişləmə ilə bağlı bədii irsinin yaranmasında nümayiş etdirdiyi yüksək sənətkarlıq özünü praktiki əhəmiyyətli müxtəlif əşyaların hazırlanması ilə yanaşı, bu materialın heyrət doğuracaq bədii nümunələrində də müşahidə olunmaqdadır.

Müxtəlif formalı xəncərlər, qadın qolbaqları, medalyon və üzüklər, müştük, alışqan, qələm, qamçı, kitab üzlüyü və s. bu qəbildəndir. Onun gümüş, melxior, polad, latun və başqa materiallardan hazırladığı bu nümunələr yüksək bədii məziyyətlərinə görə nəinki məişətimizi, hətta ən nüfuzlu muzeyləri bəzəməyə layiqdir. Onlarda müəllifin ənənəvi forma-biçimi orijinal naxış örtüyü ilə mənalandırmaq istəyi qabarıqdır. Nəbati naxışların müxtəlif rəngli daş-qaşlarla vəhdəti estetik baxımdan təsirli, bir çox hallarda isə heyranedicidir. Çünki bu əsərlərdə Şaiq Məmmədov həm formanı yaxşı duyan metalçı-ustadır, həm də onu təxəyyülündə canlandırdığı obraza uyğunlaşdıran zərgərdir. Hər iki xüsusiyyəti qoşalaşdıran isə onun yüksək icra mədəniyyətinə malik olmasıdır. Bunsuz yaradılan metalişləmə nümunələri, sözsüz ki, heyranedici alınmazdı...



**Şaiq Məmmədov**

### PEDAQOJİ VƏ ELMİ FƏALİYYƏTİ

Bir qərinədən çoxdur ki, Şaiq Məmmədov özünün təhsilsonrası başlayan yaradıcılıq fəaliyyətini elmi işi ilə əlaqəli surətdə gerçəkləşdirməkdədir. Onun yazdığı "Şagirdlərin əxlaq tərbiyəsində milli dəyərlərdən istifadə" adlı dissertasiyasını 1997-ci ildə müdafiə edib "pedaqoqika üzrə fəlsəfə doktoru" elmi dərəcəsi alması da görülən bütün bu işlərin məntiqli nəticəsi oldu, desək, yanılmarıq.

Elmi-nəzəri biliklərinin praktikada tətbiqi nəticəsində pedaqoji məkanda kifayət qədər nüfuz qazanan gənc alimin müdafiədən iki il sonra çalışdığı ali təhsil ocağının "Təsviri sənət" kafedrasına dosent seçilməsi də hamı tərəfindən hadisələrin qanunauyğun inkişafı kimi qəbul edilmişdi. Onun 2010-cu ildə elə həmin kafedrada professor əvəzi seçilməsini də səmərəli pedaqoji fəaliyyətinin nəticəsi saymaq olar.

Bakıdan Gəncəyə döndüyü vaxtdan təsviri və tətbiqi sənət sahəsində davamlı bədii axtarışlar aparan Şaiq Məmmədov burada baş tutan fərdi yaradıcılıq hesabatları və Bakıda keçirilən respublika sərgiləri nəticəsində özünün metalişləmə kimi milli sənət növünün ənənə və müasirlik kontekstində inkişaf etdirilməsi yönündə sənətkar potensialının zənginliyini mütəxəsisslərə və sənətsevərlərə nümayiş etdirməyə nail olmuşdu. Həmin baxışlarda qalib adına və müxtəlif diplomlara layiq görülməsi isə onun yaradıcılıq axtarışlarına verilən rəsmi dəyərləndirmənin ifadəsi idi. Bütün bunları öz-özlüyündə Şaiq Məmmədovun cavabsız qoyacağını düşünmək sadəlövhlük olardı. Odur ki, onun 2005-ci ildə müstəqilliyin şirinliyini ölkə ərazisində yaşayanlardan daha yaxşı dəyərləndirməyi bacaran Cavad xan yurdunda el sənətinin müxtəlif növlərini yaşatmağa meylli olan yaradıcı insanları bir araya gətirəcək "Xalq Sənətkarlarının Yaradıcılıq Mərkəzi" İctimai Birliyini təsis etməsi çox təbii qarşılandı.

Şaiq Məmmədovun elmi-yaradıcılıq fəaliyyətində onun 2002-2012-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Regional Elmi Mərkəzindəki "Azərbaycan incəsənəti" şöbəsinə rəhbərlik etməsi də xüsusi yer tutur, desək, yanılmarıq. Alim-rəssamın təşəbbüsü ilə burada 2006-cı ildə təşkil olunan "Xalq sənətkarlığı yaradıcılıq mərkəzi" əslində çoxdan arzu edilən və bu qədim yurdun tarixi bədii ənənələrinin əyanilədirilməsinə xidmət edəcək bir mənəviyyət ocağı oldu. Demək olar ki, ekspoziyası yox yerdən yaradılan mərkəzin ilk eksponatları da Şaiq müəllimin şəxsi kolleksiyasındakı müxtəlif sənətkarlıq nümunələri təşkil etdi. Yalnız sonrakı dövrdə bura əhalidən toplanan digər el sənətkarlığı nümunələri ilə zənginləşdirildi. Elə onun mövcudluğu dövründə (hazırda həmin kolleksiya Gəncə Pedaqoji Universitetində nümayiş olunur) Şaiq Məmmədovun davamlı elmi-praktiki səyləri ilə sənətkarlar yurdu kimi tanınan Gəncənin keçmiş bədii mənzərəsini canlandırmaq mümkün oldu. Bunun da həm yerli əhalidə, həm də bura Nizami işığına üz tutan xarici qonaqlarda böyük maraq yaratması danılmazdır.

Elə 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının sərəncamı ilə xalq sənətinin inkişafındakı xidmətlərinə görə ona "Azərbaycan Respublikasının əməkdar rəssamı" fəxri adının verilməsi də saflığı duyulan niyyətinə verilən ən böyük mənəvi dəstək oldu, desək, yanılmarıq...




Kitab üçün üzqabığı



Qələm və müştük



Boyunbağı



Daraq



Bıçaqlar



Zərgərlik nümunələri